Ədəbiyyat qəzeti.
2 11 dekabr 2009-cu il

# Sənin varaqlarında

Arzumdan yaranmısan, əziz, doğmasan mənə -
Şeirlərim can tapıb sənin varaqlarında.
Alnın açıq, üzün ağ addımla hər gün yenə
Öz qələm ordunla sən sənət ocaqlarında.
İnsanların üzünə qoy gülsün sətirləri,
Dərdlərini unutsun gözləri yaşlılar da.
Qələmlərlə dəmirdən tökülsün sətirlərin,
Gənclərimizdən geri qalmasın yaşlılar da.
Vermə yer zəiflərə səhifəndə heç zaman,
Doğma ana dilimin sayıq dur keşiyində.
Qoyma sənət bağında göyərsin qanqal, tikan, -
Qara, yad fikirləri boğ murdar beşiyində.
Min beş yüz nömrən çıxıb, qoy bu olsun min kərə
Hər nömrəndə həmişə min təzə mətləb olsun!
Səhifəndən şerimiz yol tapsın ürəklərə, -
Millətimin həyatı səninçün məktəb olsun!

Süleyman RÜSTƏM